# Şəhidlər əbədi-əzəli qürur və iftixar yerimizdir



**8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Abşeron rayonunda şəhid analarının, bacılarının və həyat yoldaşlarının iştirakı ilə tədbir keçirilib.**






Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirin aparıcısı Dəniz Rüzgar iştirakçıları salamladıqdan sonra bildirdi ki, Vətənimizin ərazi bütövlüyü, suverenliyi və müstəqilliyi uğrunda qəhrəmanlıqla şəhid olmuş cəsur oğullarımızın xatirəsi həmişə əziz tutulacaq, onlar heç vaxt unudulmayacaq.

Azərbaycan Respublikası Şəhid Ailələrinə Qayğı Cəmiyyətinin sədri Müşfiq Əliyev çıxışı zamanı müqəddəs Ramazan ayında tutulan orucların, edilən duaların qəbul olunmasını Uca Tanrıdan təvəqqə etdi. Bildirdi ki, xalqımıza böyük Zəfərin sevincini yaşadan şəhidlər daim ehtiramla xatırlanacaq, hörmətlə anılacaq. Şəhidlər hamımızın fəxr yeri, qürur mənbəyi olaraq qalacaqlar. Belə cəsur, mərd, qəhrəman övladlar böyüdən anaların qarşısında baş əyirik. Dünyanın ən gözəl və ən xoş sözlərini yalnız və yalnız onlara ünvanlayırıq.

Cəmiyyətin Abşeron rayon şöbəsinin sədri Simarə Süleymanova, xeyriyyəçi Xəyal Musayev, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi Biləsuvar rayon şöbəsinin sədri Qurban Qurbanov, Aprel döyüşləri və İkinci Qarabağ müharibəsinin iştirakçısı Səbuhi Məhərrəmov, iş adamı Pərvin Kərimov və başqaları çıxış edərək 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə şəhid analarını, bacılarını və həyat yoldaşlarını təbrik etdilər, ünvanlarına xoş sözlər dedilər, onlara qiymətli hədiyyələr təqdim etdilər.

Vətənpərvər ruhuna köklənmiş tədbirlərdə fərqli, seçilən səs tembri ilə özünü və bədii qiraət sənətini geniş auditoriyaya sevdirməyi bacaran məktəblilər Rahil Məmmədzadə, Nuray Səlimova, Yolçu Musayev, aşıq Qızqayıt Kəlbəcərli və başqaları maraqlı çıxışları ilə mərasim iştirakçılarının ovqatına ovqat qatdılar.

Tədbirdə səsləndirilən "Qəhrəman oğullarımızın qisası döyüş meydanında alındı" sözləri bütün şəhid ailələrini, şəhid analarını qürurlandırdı. Tez-tez keçirilən belə əlamətdar tədbirlər bir daha göstərir ki, Azərbaycan xalqı torpaqlarının azadlığı uğrundan şəhid olmuş oğulları da, onların yaxın və doğmalarını da heç vaxt unutmayacaq.

Tədbir qəhrəman oğullarımızın həyat və döyüş yollarından bəhs edən videoçarxın nümayişi ilə başa çatıb.

***Reyhan TAHİRQIZI,***
***Laçından olan keçmiş məcburi köçkün***

Azərbaycan.- 2025.- 8 mart (№52).- S.7.